# Azərbaycan-Macarıstan: sınanmış dostluq, etibarlı tərəfdaşlıq



"Azərbaycan mühüm ölkədir. Azərbaycan olmadan biz enerji müstəqilliyinə nail ola bilmərik". Bu günlərdə İspaniyanın Qranada şəhərində Avropa İttifaqı (Aİ) liderlərinin qeyri-rəsmi görüşündən əvvəl bəyanat verən Macarıstanın Baş naziri Viktor Orban belə deyib.

Macarıstanın Baş nazirinin ölkəmiz haqqında bu cür yüksək fikir söyləməsi, Azərbaycanın Avropa İttifaqının enerji müstəqilliyinin qorunmasında əhəmiyyətli rol oynadığını vurğulaması birinci dəfə deyil.

Azərbaycan-Macarıstan tərəfdaşlığı getdikcə genişlənir və möhkəmlənir. Gündəmdə dayanan birinci məsələ isə enerjidir. Azərbaycan qazının ixrac marşrutlarının şaxələndirilməsi vaxtilə maliyyə mənbələri müəyyən edilmədiyi üçün həyata keçirilə bilməyən NABUCCO layihəsini bir növ canlandırır. İndi qaz interkonnektorlar vasitəsilə Bolqarıstana, sonra Rumıniyaya, Macarıstana və buradan da digər Avropa ölkələrinə çatdırılacaq. Beləliklə, Macarıstan təkcə Azərbaycan qazının istehlakçısı deyil, eyni zamanda onu tranzit edən ölkə kimi də fəaliyyət göstərəcək. Bu il yanvarın 30-da Prezident İlham Əliyevin Macarıstana rəsmi səfəri çərçivəsində müvafiq nazirliklərin rəhbərlərinin imzaladıqları sənədlər sırasında həmçinin təbii qaz əməkdaşlığı haqqında anlaşma memorandumu özünə yer almışdır.

Məlumdur ki, bu gün enerji təhlükəsizliyi bütün dünyada xüsusi əhəmiyyət daşıyır. Azərbaycanın zəngin karbohidrogen ehtiyatları imkan verir ki, təbii qazla bağlı ən azı yüz il bundan sonra Avropa ilə tərəfdaş olsun. Ölkəmizin bu istiqamətdə gördüyü işlərə görə Avropa Komissiyasının rəhbərliyi Azərbaycanı məhz etibarlı tərəfdaş adlandırır .

Bu il aprelin 25-də isə Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu" imzalandı. Bu sənəd Azərbaycandan Avropaya əlavə qazın tədarükü üçün 4 ötürücü sistem operatoru ilə SOCAR arasında əməkdaşlığın istiqamətlərini müəyyən edir. Əlavə qaz tədarükü "Həmrəylik halqası" adlandırılan Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın təkmilləşdirilmiş ötürücü şəbəkə sistemləri vasitəsilə həyata keçiriləcək.

Azərbaycan-Macarıstan əməkdaşlığının inkişafında ölkəmizdə yaxşı tanınan MOL şirkətinin də özünəməxsus yeri var. Qeyd edək ki, hazırda bu şirkət "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının tammiqyaslı işlənməsi layihəsində 9,57 faiz iştirak payına malikdir. MOL, eləcə də Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin 11 səhmdarından biridir və burada 8,90 faizlik payla iştirak edir.

MOL mənzil-qərargahı Macarıstanın Budapeşt şəhərində yerləşən iri neft-qaz şirkətidir. 1991-ci ildə yaradılıb. Şirkət karbohidrogenlərin kəşfiyyatı, hasilatı və nəqli ilə, eləcə də ümumi uzunluğu 5200 kilometrə çatan magistral qaz kəmərlərinin istismarı ilə məşğul olur. MOL-un Macarıstanda, Slovakiyada və Rumıniyada onlarca yanacaqdoldurma stansiyası var. Qrupun tərkibinə Macarıstandakı kimya və Avstriyadakı ticarət şirkətləri də daxildir. MOL-un Macarıstan, Slovakiya və Xorvatiyada üç neft emalı və iki neft-kimya zavodu fəaliyyət göstərir.

İndiyədək MOL və SOCAR şirkətləri arasında bir sıra sazişlərin imzalanması gələcəkdə əməkdaşlıq və tərəfdaşlığın daha da genişlənəcəyinə, bunun Azərbaycan-Macarıstan iqtisadi əlaqələrinə yeni töhfələr verəcəyinə böyük inam yaradır.

Bu il martın sonunda Budapeştdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) enerji nazirlərinin 3-cü iclası çərçivəsində də Azərbaycanla Macarıstan arasındakı əməkdaşlığın inkişafından geniş bəhs olunub. TDT formatında əməkdaşlığa, Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında sazişin və təbii qaz əməkdaşlığı haqqında anlaşma memorandumunun icrasına dair məsələlər müzakirə edilib. Burada MOL şirkətinin Azərbaycanın neft-qaz yataqlarının işlənməsində iştirakının genişləndirilməsi imkanları da nəzərdən keçirilib.

Göründüyü kimi, indi artıq "yaşıl enerji" üzrə geniş əməkdaşlığa start verilib və Macarıstan da bir sira ölkələr kimi, bu məsələnin mərkəzindədir. Keçən il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması buna aydın misaldır. Təbii ki, hər hansı bir ixrac layihəsinin həyata keçirilməsi öncədən genişmiqyaslı işlərin görülməsini, infrastrukturun yaradılmasını tələb edir. Elektrik enerjisinin ötürülməsinin də özünəməxsus çətinlikləri və spesifik cəhətləri var. Belə ki, bərpaolunan enerjinin inteqrasiya edilməsi üçün münasib interkonnektorlara ehtiyac yaranır. Buna görə Rumıniya, Gürcüstan və Azərbaycan arasında Qara dənizdən çəkiləcək elektrik xətti olduqca vacibdir. Bərpaolunan enerji mənbələrindən elektrik enerjisini Rumıniya və Macarıstan ərazisindən Avropa İttifaqına gətirməklə bu layihə təchizatın təhlükəsizliyini gücləndirməyə kömək edəcək.

Prezident İlham Əliyev bu il yanvarın 30-da Budapeştdə həmin məsələ barədə demişdir: "Yaxın keçmişdə aşkarlanan böyük "yaşıl enerji" potensialı da Azərbaycanın önəmini daha da artırır. Əlbəttə ki, "yaşıl enerji" ilə bağlı olan və artıq icra olunan layihələr bizi Avropa üçün daha da yaxın edəcək... Keçən ay imzalanmış sazişə əsasən, Azərbaycan "yaşıl enerji"sini Avropaya çatdıracaq və bu gün bu məsələlər bir daha müzakirə edildi. Bir neçə gündən sonra Bakıda keçiriləcək birinci rəhbər komitədə bu layihədə cəmləşən ölkələr - Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya bir araya gələrək gələcək fəaliyyətin konsepsiyası üzərində işləməyə başlayacaqlar". Bu, belə də oldu.

Macarıstanla əməkdaşlığın əsas hissəsini enerji məsələləri təşkil etsə də, əlaqələr bununla məhdudlaşmır. Eyni zamanda nəqliyyat sahəsində böyük planlar həyata keçirilir. Dəmir yolları vasitəsilə artıq Macarıstandan Azərbaycana, Azərbaycandan Macarıstana yüklərin ötürülməsinə başlanılıb. Bu layihənin də potensialı böyükdür. Ölkəmizin müasir nəqliyyat infrastrukturu - tankerlər, gəmilər, böyük dəniz ticarəti limanı, dəmir yolları var və onlar bütün lazımi tələblərə cavab verir. Azərbaycan, açıq dənizlərə çıxışı olmasa da, Avrasiyanın önəmli nəqliyyat-logistika mərkəzlərinin birinə çevrilə bilər. Odur ki, Avropa ölkələri ilə və xüsusilə ən yaxın tərəfdaşlarımızdan biri olan Macarıstanla əməkdaşlıq üçün geniş imkanlar var.

Macarıstanın Baş naziri Viktor Orban Azərbaycanı həmişə sadiq dost, etibarlı tərəfdaş kimi yüksək dəyərləndirir. Məsələn, cari il yanvarın 30-dakı bəyanatında bu barədə fikirlərini belə ifadə edib: "Azərbaycan hər zaman bizim dostumuz olub, indi isə o, artıq bütün Avropa üçün strateji tərəfdaş olan ölkədir. Bunu bu gün Avropada hər kəs anlayır ki, bizim bu vəziyyətə olan cavabımız şaxələndirmədir. Müxtəlif mənbələrdən maksimal dərəcədə nəql edilə biləcək həcmdən söhbət gedir... Azərbaycan Avropa İttifaqı ilə müvafiq sənəd imzalayıbdır. Həmin sənədə uyğun olaraq, 2027-ci ilə qədər Azərbaycan Avropaya nəql ediləcək qazın həcmini iki dəfə artıracaqdır. Bununla yanaşı, biz digər bir saziş də imzalamışıq. Biz Azərbaycanda istehsal edilən elektrik enerjisini Avropaya gətirəcəyik. Xəritəyə baxsanız görərsiniz ki, həm təbii qaz, həm də elektrik enerjisi baxımından Azərbaycandan gələn bu enerji həcmləri Macarıstandan keçəcək. Ona görə də Macarıstan da bu məsələdə uduşlu vəziyyətdə olmaq arzusundadır. Həmçinin nəqliyyat marşrutu üzərində yerləşdiyimiz üçün Macarıstanın da rolu artacaqdır".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 10 oktyabr.- S.10.